**UOT 75.535.6.667.7**

**Ülviyyə Tapdıq qızı Həmzəyeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Dissertant**
**E-mail: ulviyya.hamzayeva@yahoo.com**

# İBRAHİM SAFİNİN NATÜRMORTLARINDA AVROPA RƏNGKARLIĞININ TƏSİRİ

**Xülasə:** Məqalə görkəmli Azərbaycan rəssamı İbrahim Safinin (Rəhman Qafar oğlu Safiyev 1898-1983) yaradıcılığına həsr olunub. Tədqiqatda rəssamın natürmortlarında Avropa rəssamlığının təsirinin izləri üzə çıxarılır. Müəyyən olunur ki, İbrahim Safinin əsərlərində Avropa rəngkarlığında mövcud olan cərəyan və bədii prinsiplərin dərki və istifadəsi rəssamın özünəməxsus yaradıcılığını səciyyələndirən xüsusiyyətlərdəndir. Rəssamın natürmort janrında icra etdiyi əsərlərində gözəlliyin təqdiminə yönəlmiş duyğulu və həssas yanaşmanın dekorativ rəng həlli ilə ifadə olunma cəhdi həmin sənət nümunələrinin uğurlu nəticəsinin əsas səbəbidir. Rəssamın əsərləri həmçinin rəng, məzmun və texnika baxımından da tədqiq olunur.

**Açar sözlər:** İbrahim Safi, natürmort, Avropa, təsir, istiqamət, rəngkarlıq

XX əsrin əvvəllərində Avropa rəssamlarının natürmortlarında yaradıcılığın deyil, düşüncənin və seçkinin əhəmiyyətini vurğulanması nüansına İbrahim Safi yaradıcılığına məxsus natürmortların da səciyyəvi xüsusiyyəti kimi qeyd etmək doğru olar. Əsasən Holland rəssamların yaradıcılıqlarında sıx rastlanan çiçək kompozisiyaları tez-tez meyvələr, kiçik əşyalar və heyvan şəkilləri ilə tamamlanırdı. Bu obrazlar əsərdəki əsas fikri ifadə edərək sanki dünyadakı hər şeyin keçiciliyini, faniliyini vurğulayırdı. Məsələn, XVII əsrin çox istedadlı Niderland rəssamı Yan Davids de Hemin Dövlət Ermitajında qorunan natürmortunu misal göstərərək rəngliliyin, əlvanlığın tünd fon üzərindəki parlaqlığının zərif olduğu qədər də kədərli, təsviri həssaslıqda, lirikasında gizlənmiş incə hisslərin təqdim etdiyi bir təəssüf özünü aydın şəkildə göstərdiyini qeyd etmək mümkündür. Qeyd edilən əsərdə vazanın dibində rəssam bitmiş həyatın simvollarını təsvir etmişdir: solmuş və qırılan çiçəklər, dağılmış ləçəklər və qurudulmuş noxud qabıqları. Gül topasının mərkəzində çöl çiçəkləri, bənövşələr və s. kimi təvazökarlıq və paklığın simvollarını görürük. Güllər solğunlaşan gözəlliyi və mənasız tullantıları simvollaşdıran lalələr ilə əhatə olunmuşdur. Natürmortda eyni zamanda həyatın kövrəkliyini xatırladan sulu güllər və xaşxaşların da təsviri verilmişdir. Kompozisiya müsbət mənalı iki böyük çiçəklə

taclandırılır. Mavi iris günahların bağışlanmasını təmsil edir və fəzilət sayəsində qurtuluş ehtimalını göstərir. Güllərin gövdəsində oturan bir kəpənəyin ruhun ölməzliyini simvolizə edən təsviri əhəmiyyəti əsərin mahiyyətində dayanan mənanın əsaslandırılması ilə öz izahını tapır.

Göründüyü kimi burada sadəcə bir təsvirin material üzərindəki bədii əksini deyil, həyat haqqındakı düşüncələrin təsviri izahını verən dolğun kompozisiya quruluşu ilə düşüncələrimiz cəlb olunur. Bu xüsusiyyəti İbrahim Safi yaradıcılığında da aydın görmək mümkündür. Lakin rəssamın natürmortlarında daha çox gözəlliyin bədii ifadəliyi hər zaman ön planda olmuşdur.

Digər tərəfdən o dövrün digər janrları kimi natürmortlar da əsasən hollandiyalıların da XVII əsrdəki həyatlarının real xüsusiyyətlərini, xüsusən çiçəkçilik, bağçılıq həvəslərini əks etdirirdi. Çiçək natürmortlarında sənətkarlar lalələr, qızıl güllər, qladioluslar, sünbüllər, qərənfillər, zanbaqlar, bənövşələr, çobanyastıqları kimi güllərin təsvirləri yer alırdı. Natürmort üçün çiçək seçərkən əsas meyarlar onların gözəlliyi və nadir olması idi. Eyni zamanda, bir natürmortda təbiətin müxtəlif zamanlarında çiçək açan güllər təsvir edilə bilirdi.

Bütün bunlarla yanaşı təsvir maneralarında seçilmiş tünd fon üzərində güllərin xüsusi işıq effekti ilə işıqlandırlması nüansı da eyni səviyyədə Safi yaradıcılığında da diqqət çəkən amillərdəndir. Yenə də misal olaraq Holland rəssamı Böyük Breygelin “Taxta dibçəkdə çiçəklər” natürmortunu nəzərdən keçirərkən qara fon üzərində xüsusi işıq effekti ilə rəngarəngliyi üzə çıxarılmış əlvan çiçəklərin nəzəri ilk andaca cəlb edən görüntüsü önə çıxır. Çiçəklərin masa üzərində səpələnmiş kiçik hissəcikləri isə daha solğun və quru formada da olsa öz təbiiliyini hiss etdirir.

İbrahim Safinin natürmortlarından birində arxa fonun tünd rəngi üzərində verilmiş əsas təsvirin boz vazada yaz çiçəyinin sıx şəkildə təsviri həlli vazanı üzərindən başlayan işıq effekti ilə diqqəti cəlb edir. Vazanın aşağı qismində masanın üzərində şaftalıların daha isti tonlarda olan həlli əsərin maraq dairəsini artırmışdır. Çiçəklərdən bir neçə budaq meyvələrin aralarında pərakəndə şəkildə sıralanmışdır.

Safi yaradıcılığına məxsus “Vazada çiçəklər” əsərində rəssam boz fon üzərində tünd rəng atışları ilə onu təsvirin arxasında xüsusi tünd çalara bürünməsinə imkan vermişdir. Sarı, qırmızı, bənövşəyi güllər isə yaşıl yarpaqlarla birlikdə xüsusi formada öz həllini tapmışdır. Məsələn, sarı rəngli iki çiçək sol aşağı qisimdə, ikisi isə yuxarı sağ hissədə yer almışdır. Onların açıqlığı qırmızı və bənövşəyi çiçəkləri əhatələməklə onların daha aydın ifadə yaratmasına imkan verir. Burada da bir istiqamətin olması diqqətdən yayınmır. Belə ki, qırmızı rəngli çiçəklər daha mərkəzə doğru verilmişdir. İlk baxışda topa şəkildə göy vazaya qoyulmuş çiçəklərin birlikdə tərənnümü diqqət çəksə də, burada bir nizamin olması əsərin dolğun və gözəlliyi ifadə edən mənası ilə qarşılanması ustalıqla öz həllini tapmışdır.

Və yaxud “Günəbaxanlar” əsərində fonun qəhvəyi rəng çalarlarının yuxarıya doğru daha tünd olmasının işıq effektinin düz açıq rəngli vazanın içərisinə qoyulmuş günəbaxanların üzərinə gələn işığın aşağıdan yuxarıya doğru paylanması ilə əsas olanın önə çəkilməsi, daha doğrusu, əsasın məna dəyərinin izləyicisinə çatdırılması ilə öz izahını tapır. Masanın üzərindəki tünd qırmızı rəngli örtüyün də bir qədər tünd olması əsərdə rəng balansının qorunmasında məqsədli bədii təsvir vasitəsi olaraq dəyərləndirilir.

Bu cür nizamı impressionist rəssamların əksinə, obyektləri təməl xüsusiyyətləri ilə təsvir edən Pol Sezanın da çox saylı natürmortlarında görürük. Sezan istifadə etdiyi rənglərin və tonların xüsusiyyəti ilə, sıxlığı ilə və bir-birini izləyən boya qatları ilə obyektin quruluşunu və xüsusiyyətlərini vermişdir. Əsərlərində formalar müstəvi qaydalarına uyğun gəlsə də dərininə çəkildiyi üçün üç ölçülü kimi ifadə olunur.

İbrahim Safi yaradıcılığında özündən əvvəlki ustad sənətkarların əsərlərindən olan təsirlərin özünəməxsus əksi yenə də diqqəti cəlb edir. Qeyd olunanların ba- riz nümunəsi olaraq rəssamın Türkiyənin Ziraat Bankının kolleksiyasında qorunan “Narlı natürmort” əsərini diqqətdən keçirək. Əsərin tünd göy rəngdə verilmiş fon üzərində atılmış kiçik işıq nöqtələri arxa hissəni tamamilə qaranlıq tutmamağa çalışan bədii ifadə tərzidir. Ön səhnədə rəssam meyvələrin aydın tərənnümünü canlandırmışdır. Müqayisə üçün XIX əsrin məşhur fransız rəssamı Qustav Kurbenin natürmortlarına da diqqət yetirdikdə görürük ki, almalar və narın, meyvələrin kütlələri və həcmli təsvirləri, tonlarda və boyanın qalınlığındakı diqqətsizliyi göz oxşayandır. Qaranlıq arxa plan narların və almaların daha işıqlı görülməsinə səbəb olur. Rənglər parlaq və ölçülüdür. İbrahim Safinin də qeyd edilən əsərində bu təsirlərin aydın izlərini görmək mümkündür. Qırılmış qoz qabıqları, arxada üzüm salxımı, onun yanında sarı heyvalar mərkəzdəki boşqabda açılmış narlarla birlikdə işıq nüansının uğurlu həlli ilə mükəmməl kompozisiya quruluşunu meydana çıxarmışdır.

Və yaxud “Uşaqlıq dadı, heyva” əsərində rəssam arxanın daha tünd pərdə üzərində yenə də tünd çalarda dik qoyulmuş sini təsvirini verməklə fonun həm əsas təsvirləri aydın üzə çıxaracaq tünd çaları, həm də bu tündlüyün dolğun təsvir olunmuş, meyvələrin parlaq və ifadəli şəkildə həll edilməsi ilə tamaşaçısını yaradıcılığının özünəməxsusluğunu meydana çıxaran sənət əsəri ilə yaxından tanış etməyə davam edir. Masa üzərində sərilmiş parlaq süfrə ağ rəngdə verilmişdir. Onun üzərindəki meyvələr sindən pərakəndə şəkildə masaya dağılsa da, burada yenə də tamaşaçı nəzərinin yayınmasına imkan verməyən yaradıcı bir nizamın olduğunu görürük. Üç sapsarı heyva bir-birinin yanında mərkəzdə verilmişdir. An baş hissəsində isə sarımtıl üzüm salxımı yayılmış formada öz həlini tapır. Hər iki tərəfdə naringilərin sanki qeyri-iradi düzülüşü realistik üslubda yaradılmış əsərdəki təbiiliyi canlandırır.

Burada dağınıqlığın yaradıcı nizama tabe edilməsi, rəng həllinə görə meyvələrin doğru mövqedə tərənnümü əsərin dolğun və nəzəri cəlb edən bədii ifadə tərzi ilə bizləri qarşılaşdırır.

Rəssamın "Üç şam" adlı natürmortunda verilmiş dolğun və real canlı ifadə meyvələrin, çiçəklərin, üzəri bəzəkli vazanın təsviri ilə diqqəti cəlb edir. Üstün bu zənginlik tünd zoğalı rəngli fon üzərində həll edilmişdir. Masa örtüyünün ağ rəngdə verilməsi həm fonla təzad təşkil edərək diqqətin cəlb edilməsinə, həm də masa üzərindəki təsvir elementlərinin rəngarəngliyin, ölçülərinin qabarıqlığını önə çıxarmağa xidmət edir. Yenə də əsərdə bütün təsvir elementlərinin pərakəndə dağınıqlığın ilə rastlaşırıq. Əsərdəki yaradıcı nizamın varlığı mükəmməl kompozisiya quruluşunun meydana çıxmasının əsas səbəbidir. Belə ki, mərkəzdə dik qoyulmuş sininin önündə yarı bölünmüş qarpızlar verilmişdir. Onun hər iki tərəfində çəmən çiçəklərinin zərifliyi öz həllini tapmışdır. Tablonun sol hissəsində üzərində ağ naxışlarla həll edilmiş klassik vazanın təsviri, sol hissədə isə şamdanda yanan üç şamın tərənnümü əsərin ifadəli təqdimi ilə izah edilir. Bu hissə əsasən daha soyuq, zərif rənglərlə, işıq nüansını zərif ifadəsi ilə öz həllini tapmışdır. Masa üzərindəki meyvələr isə daha parlaq və işıqlı görünür. Bananlar, açılmış narlar, almalar, armudlar, əncirlər, üzüm salxımları bir yerdə sıx şəkildə sıralansa da arxada qeyd edilən nizam əsərdə diqqəti dağıda biləcək hər hansı bir nizamsızlığın, dağınıqlığın var olduğunu qeyd etməyə qəti şəkildə əsas vermədən maraqlı sənət nümunəsini təqdim edir. Ümumiyyətlə, natürmortda daha çox diqqəti cəlb edən səhnənin lirikasını, zərif hisslərin təqdim edilmə cəhdidir.

"Qovun, üzüm" adlı natürmort nümunəsində isə Pol Qogenin əsərlərində rast gəlinən aydın və parlaq ifadənin təsirlərinin özünəməxsus təsvir formasının şahidi oluruq. Burada fonun da açıq pərdə effekti təsvir vasitəsinə çevrilərək birlikdə kompozisiyanın tamamlayıcısı rolunda iştirak edir. Kəsilmiş qovunun bir hissəsi dik formada, digəri isə düz şəkildə masa üzərində qoyulmuşdur. Qovunların yan hissəsində kompozisiyanın mahiyyətini zənginləşdirəcək digər meyvələrin tərənnümü kimi heyvaların, armudların, daha ön hissədə boşqabından kənara yayılan üzüm salxımım parlaq ifadəsi canlandırılmışdır. Arxada qovunun yanında tünd rəngli şərab şüşəsi verilmişdir ki, öndə şərab badəsinin verilməsi də elementlərin bir-birinə olan açıqlayıcı təsvirini ifadə edir. Tablonun sağ aşağı qismində külqabı və yarıya qədər istifadə edilmiş siqaret təsvirinin əks olunması naturada bir yaşantının, canlılığın, hərəkətin var olması hissiyyatı ilə fərqli təsir gücünə malik kompozisiya quruluşunu meydana çıxardır. Lakin buna bir ziyafət masası demək mümkün deyildir. Əsərdəki əsas məqsəd ruhun azadlığı, onun dincəlmək istəyi, gözəlliyin təbiət nemətləri ilə birlikdə ruhda birləşmə anının çatdırılmasıdır.

Digər əsərdə də fon və təsvir elementləri birlikdə kompozisiyanın əsas təsvir vasitəsi kimi maraq doğurur. Əsərdə XX əsrdə Pierre Bonnard, Karlo Karra, Henri Rousseau, Emil Nolde, Paul Klee, Fernand Leger, Maurice də Vlaminck, Henri Matiss, André Dürerin, Chaim Soutine, Piet Mondrian, Salvador Dali və Joan Miro kimi rəssamların olduqca məşhur natürmortlarında düşüncənin və seçkinin əhəmiyyətini vurğulayan təsir gücünü İbrahim Safi yaradıcılığına məxsus digər natürmortlarda olduğu kimi qeyd edilən əsərdə də hiss ediləcək tərzdədir. Meyvələr və çiçəklərin birgə tərənnümünü canlandıran kompozisiyada elementləri sıx şəkildə bir masa üzərində verilməsi ilə rəssam bütün fərqli təbii gözəllikləri birləşdirərək onların qabarıq ifadəsini canlandırmışdır.

İstedadlı rəssamın Arkas Sənət kolleksiyasına daxil olan "Mis qablarla natürmort" əsərində də fərqli kompozisiya quruluşu və fərqli təsvir elementləri ilə rəssamın eyni məqsəddən çıxış edən təsir gücünü hiss edirik. Əsərdə əsas olanın mis qablar olduğu vurğulamağa çalışan rəssam iki sini və dolçanın qəhvəyi çalarda həll edilmiş fon üzərində mis səthlərinin reallığını canlılığı ilə diqqəti cəlb edir. Onların üzərində parlaqlığın verilməsi işıq və kölgə münasibətinin uğurlu həlli ilə əldə edilmişdir. Mis qabların önündə verilmiş tərəvəzlərin qarışıq tərənnümü eyni zamanda özünün rəngarəngliyi daha dərindən ifadə etməsində mis qabların xüsusi gözə çarpan tərənnümün meydana çıxarmaq cəhdinin dayanma nüansı nəzərdən yayınmır. Lakin bununla rəssamın asan yola gedərək məqsədinə nail olduğunu qeyd etmək yanlış olar. Çünki hər bir təsvir elementinin əsərdəki doğru mövqeyi kompozisiyanın maraqla izlənməsinin əsas səbəbidir. Xiyar, badımcan, yaşıl tərəvəzlərin aralıqlarında qırmızı pomidorların daha çox verilməsi tablodakı rəng effektinin daha təsirli olmasına imkan yaradır. Bütün bu keyfiyyətlərin ağ süfrə üzərində verilməsi onların qarışıqlıq yaratmadan aydın qavranılmasına da imkan yaradır.

Parisdə nəşr olunan "Orient" qəzetində yazılırdı: "Safi öz dövründə Türk rəssamları arasında güclü sima kimi fərqlənir. O, heç bir zaman rəssamlığı abstraksiyaya çevirən konsepsiyalar ardınca getmir. Tamaşaçılar İbrahim Safinin parlaq boyalarına, incə nüanslarına valeh olurlar. Rəssamın mənzərələri o qədər təsirli və canlıdır ki, onlara baxarkən istər-istəməz romantika haqqında düşünürlər" [2, s.15].

Rəssamın həmdövrü olan türk rəssamlarının yaradıcılıqlarına məxsus səciyyəvi xüsusiyyətlərin əsasları da maraq doğurur. Məsələn, bu dövrdə yaradılmış natürmortlarda əsasən sadəcə natürmort xarakteri daşımayaraq, digər elementlərlə birlikdə verilməsi gündəlik məişət psixologiyasının əsaslarını açılışına xidmət edirdi. Belə əsərlərə misal olaraq rəssamla eyni dövrlərdə fəaliyyət göstərmiş Türkiyə rəngkarlığında "kolorit ustası" kimi məşhur olan Sabiha Bozçalının natürmortlarını göstərmək olar. İstedadlı rəssamın bu tipli natürmortlarında verilmiş dekorativ elementlərlə meyvələrin uyğunluğu, əlaqəliliyi diqqət çəkir.

Ümumiyyətlə, bu tipli əsərlərdə dekorativ-tətbiqi elementlərin rəngkarlıqda istifadəsi iki cür dəyərləndirilirdi. Bir tərəfdən bu Türkiyə dekorativ sənətinin rəngkarlıqda tətbiqi onların dəyərli tərəflərinin, tarixinin, müasir inkişafının göstəricisi kimi qiymətləndirilirsə, digər tərəfdən bu fəza və element, işıq-kölgə nüanslarının düzgün yerləşdirilməsi, savadlı kompozisiya quruluşu əldə edilməsi kimi diqqəti cəlb edir. Sabiha Bozçalının natürmortlarından birini misal olaraq göstərə bilərik ki, burada yaşıl fon üzərində qızılı sini üzərində kiçik sadə güldanın, meyvə qabının, müxtəlif meyvələrin təbiiliyi özünün dağınıq görünüşü ilə əsərin real təsir gücündəki əhəmiyyətini təsdiq edir.

İbrahim Safinin kompozisiya baxımından qeyd edilən əsərə yaxın olan "Şaftalı və albalılarla kompozisiya" adlı natürmortunda arxa planda verilmiş sininin açıq tonda həll edilmiş divar üzərində dik formadakı həlli mərkəzi mavi çalarla şaftalı və albalıların özünü daha qabarıq göstərməsinə imkan yaradır. Sağ hissədə düz sadə formada verilmiş qəhvədanın şəffaf rəngi içərisindəki meyvə şirəsinin saflığını əks etdirərək təbii meyvələrin dəyərini də vurğulayır. Açıq rəngli süfrə üzərində verilmiş meyvələr bir neçə yerdə həm boşqabda, həm də masa üzərində təsvir edilmişdir.

Əsasən Holland rəssamlarının əsərlərində təbiətin bir parçası, onun gözəllik tərənnümçüsü olan güllərin təsvirinə həsr edilmiş əsərlərindəki parlaqlığın, şuxluğun lirik formada öz həllini tapmasından təsirlənən İbrahim Safi bir çox əsərində yaratdığı güllərin bədii ifadəsindəki özünəməxsus rəng həllini verməklə izləyicinin zövqünü oxşamışdır. Belə nümunələrdən olan "Qırmızı üç gül" və "Qırmızı qladioluslar" xüsusi olaraq diqqəti cəlb edir. Rəssam hər iki əsərində güllərin iri planda həllini bütün tablo boyu verməklə onların gözəlliyini daha qabarıq formada nəzərə çatdırmağa çalışmışdır. Birinci əsərdə yaşıl yarpaqların arasında yan-yana verilmiş üç gülün təravəti işıq nüansının parlaq ifadəsində, sarı rəng ləkələri ilə özünün dolğunluğunda sənətkarın lirik hisslərini ifadə edir. Eyni fikirləri digər əsər haqqında da qeyd etmək olar. Lakin buradakı təsvirin daha zərif formada özünü göstərməsi fon olaraq açıq sarı rəngin parlaq həlli ilə, eləcə də yaşıl qladiolusların arxasındakı yaşıl yarpaqların aralıqlarında ağ çiçəyin kiçik tərənnümü ilə daha aydın şəkildə izah edir. Cüt gülün rəng həllində özünü təsvirin əsası kimi göstərməsi rəssamın həm də gözəlliyə verdiyi dəyərin təsviri ifadəsi kimi dəyərləndirilir.

Və yaxud iki eyni adlı "Sarı güllər" adlı tabloda rəssamın əsasın tərənnümü də onun işıq nüansının məqsədli həlli ilə önə çəkməsi yüksək yaradıcı məharətini bir daha təsdiqləyir. Birinci əsərdə sarı güllər yam-yaşıl yarpaqlı budaqlarla təmiz və açıq göy üzünü xatırladan süd rəngli fonun üzərində öz həllini tapmışdır. İkinci əsərdə isə rəssam bu həssaslığı digər çiçəklərlə eyni kompozisiyada həll edərək, lakin əsas təsvirin diqqəti cəlb edəcək şəkildə həlli ilə meydana çıxarmağı bacarmış-

dır. Əsərdə bir həyət, və yaxud evin bağçası arxada özünü azacıq formada göstərən göy haşiyəli pəncərənin tərənnümü ilə izah edilir. Topa şəkildə verilmiş güllər evin qarşısını kəsərək önə çıxmışdır. Sarı çiçəkləri ön planda yaşıl yarpaqların arasında öz gözəlliyini bütün estetikliyi ilə ifadə edir. Aralıqlarda və bir qədər arxada isə ağ və çəhrayı çiçəklərin yer alması gözəlliyin əhatəli əksini nəzərə çatdırır. Çiçəklərin ruhun zövqünü oxşayan xoş təsvirini rəssam realistik üslubun əsaslarında həll etmişdir ki, bu da dövrün bir çox rəssamlarının yaradıcılıqlarına məxsus əsas xüsusiyyətlərdən idi. Gözəlliyin tərənnümünə çalışan rəssam hər zaman bu məqsədinə sadiq qaldığını qeyd edilən əsərləri ilə bir daha təsdiq etmişdir.

Beləliklə, İbrahim Safinin əsərlərində Avropa rəngkarlığında mövcud olan cərəyan və bədii prinsiplərin bədii dərki və istifadəsi rəssamın özünəməxsus yaradıcılığını səciyyələndirən xüsusiyyət olaraq diqqəti cəlb edir. Rəssamın natürmort janrında icra etdiyi əsərlərində gözəlliyin təqdiminə yönəlmiş duyğulu və həssas yanaşmanın dekorativ rəng həlli ilə ifadə olunma cəhdi həmin sənət nümunələrinin uğurlu nəticəsinin əsas səbəbidir.

**Ədəbiyyat siyahısı:**


1. Abutalıbov Ramiz. Rəssam İbrahim Səfi // Ədəbiyyat və incəsənət.1990. 27 iyul. s.8.
2. Bayramoğlu Meher. "20. Yüzyıl Türk Resim Sanatında Geleneksel Türk Sanat Örneklerinin Etkisi". Karadeniz Teknik Üniversitesi Güzel Sanatlar Fakültesi Resim Bölümü, 2013.
3. Əliyev Z. Rənglərin qəriblik nəğməsi: İbrahim Səfi – 120. // Mədəniyyət. 2018. 29 noyabr. s.7.
4. Quliyev Ə. Dünya şöhrətli naxçıvanlı rəssam // “İki sahil”. 2018, 25 dekabr. s.27
5. Veysəlli Ülkər. Vətən həsrəti ilə çırpınan qəlb – rəssam İbrahim Səfi // Ədalət. 2019. 10 dekabr. s.7.



**Ульвия Тапдыг гызы Гамзаева**


## ВЛИЯНИЕ ЕВРОПЕЙСКОЙ ЖИВОПИСИ НА ТВОРЧЕСТВО ИБРАГИМА САФИ В ЖАНРЕ НАТЮРМОРТА


**Резюме:** Статья посвящена творчеству видного азербайджанского художника Ибрагима Сафи (Рахман Гафар оглы Сафиев 1898-1983), который жил и работал в Турции. В исследовании рассматриваются натюрморты художника, в которых прослеживаются влияния европейской живописи. Определено, что понимание и использование существующих в европейской живописи тенден-

ций и художественных принципов в творчестве Ибрагима Сафи является од-ной из черт, характеризующих неповторимое творчество художника. Основ- ной причиной удачного результата этих художественных образцов является попытка выразить эмоционально-чувственный подход к изображению пре- красного в жаре натюрморта. Работы художника также исследуются с точки зрения колорита, содержания и техники.

**Ключевые слова:** Ибрагим Сафи, натюрморт, Европа, влияние, направ- ление, живопись.

**Ulviya Tapdiq gizi Hamzayeva**

**INFLUENCE OF EUROPEAN PAINTING IN IBRAHIM SAFI'S STILL LIFES**

**Summary:** The article is devoted to the work of the outstanding Azerbaijaniartist Ibrahim Safi (Rahman Gafar oghlu Safiev 1898-1983). In the research areexamined the artist`s still lifes which revele the influence of European painting. Itis determined that the understanding and use of the trends and artistic principlesexisting Safi on one of the features that characterize the unique work of the artist.The main reason for the successful result of these artistic samples is an attempt toexpress an emotional and sensual approach to depicting beauty in the still life genreof the artist`s works with decorative color schemes. The artist`s works are also studied in the terms of color, content and technique.

**Key words:** Ibrahim Safi, still life, Europe, influence, direction, painting.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**